# TƏŞƏKKÜR

Bu kitaba ilham verən mərhum dostum Sarqon Ərdəmə; yazdıqlarımızı Bizans və İslam tarixi cəhətdən nəzərdən keçirmiş Prof. Dr. Abdülkərim Özaydın, Prof. Dr. Mustafa Küçükaşçı, Doç. Dr. Birsəl Küçüksipahioğlu, Doç. Dr. Qasim Avcı və Doç. Dr. Kamil Yaşaroğluna; təklif və tövsiyələri ilə bizə yol göstərən dəyərli dostlarım Prof. Dr. Mustafa İsən, Ömər Ərdəm, İrfan Çalışan, Bətül Küçük, Aliyə Akan, Məltəm Kara və Kaan Murat Yanıka; Əbu Əyyub əl-Ənsarinin izi ilə çıxdığımız Məkkə və Mədinə səyahətini asanlaşdırmış Naci Koruya, Fərhat Şelli və ailəsinə, Fatih Karabuğa və Mahmud Miskinə; müxtəlif mövzularda köməyi üçün mərhum Camal Öğütə, Prof. Dr. Çiydəm Dürüşkən, Prof. Dr. Faruk Bəşər, Dr. Nursəl Uyanıkər, İsmail Kavuncu və Hilmi Şenalpa; kitabın hazırlanmasına rəhbərlik etmiş Rifat Özçöllüyə; son dəfə oxumuş Fateh Yücələ; üz qapağını dizayn etmiş Utku Lomluya; kitabın içini dizayn etmiş Atahan Sıralara; hər kitabımda olduğu kimi, bu dəfə də məsuliyyət və diqqətlə ərsəyə gələn nəşr üçün Kapı Yayınları rəhbərliyinə və əməkdaş larına; ilkin oxunu həyata keçirmiş əziz qızım Hilyə Banu Gülsərən ilə daimi ilk oxucum əziz həyat yoldaşıma təşəkkür edirəm.

*“Konstantiniyyə, əlbət, fəth olunacaqdır;*
*onu fəth edən əmir nə gözəl əmir,*
*onun ordusu nə gözəl ordudur”.*

Hədisi Şərîf

# MƏNƏQİB[1]

**"HƏR GÜN TANRI İLƏ ÖYÜNƏR, ƏBƏDİ OLARAQ ADINA ŞÜKÜR EDƏRİK"**
**(MƏZMUR, 44, 8)**



"Yəməndə Tübba Düru adında varlı, ədalətli və adlı-sanlı bir məlik yaşayırmış. Hər gün Allaha yüz kərə tövbə etdiyi və xəstəliyə tutulanda səbirlə dözdüyü üçün camaat ona "Əyyub" ləqəbi veribmiş. Zəbura əməl edər və Davud Nəbiyə inanırmış. İsa peyğəmbərdən, təxminən, yüz əlli, ya da iki yüz əlli il sonra hökmdarlıq edibmiş. Xeyli əsgəri və doqquz nəfər də müdrik vəziri varmış. Birindən başqa səkkiz müdrikin adını şəxsən özü qoyubmuş. Belə ki, heç birinin adı bir başqasının adındakı hərflərlə yazılmasın deyə, əlifba sırasındakı hərflərə

[1] Dini liderlərin və ya adı tarixə keçmiş cəsur insanların qeyri-adi və ülvi cəhətlərindən bəhs edən, ağızdan-ağıza yayılan hekayə, rəvayət.

balacadan böyüyə rəqəmli qarşılıqlar icad edib, ən cavan vəzirindən yaşlısına doğru bir-birindən fərqli, bənzərsiz adlar tapa bilibmiş. Keçmiş vaxtların salnaməsini tutanlar və keçmiş əhvalatları həvəslə danışanlar bu adları belə sadalayırmışlar: *Əbcəd (a-b-c-d), Hevvəz (he-v-z), Hutti (ha-tı-y), Keleman (ke-l-m-n), Safes (se-a'-f-sa), Karaşet (ka-r-ş-t), Sehaz (se-hı-ze)* və *Daziq (da-zı-ğ).* Yəməndə istifadə olunan ibrani və ərəb əlifbasındakı hər bir hərfin ancaq bir dəfə işləndiyi bu səkkiz adın doqquzuncusu Samula gələndə, bu, əslində, məlikin atasının da adı imiş. Yəmənin bu ədalətli hökmdarı Tübba Düru bir gün İsanın dinini öyrənmək üçün Qüdsə getmək qərarına gəlibmiş. Yolunun üstündəki Məkkəyə baş çəkərək, Kəbəni təvaf və ziyarət etmək istəyirmiş. On iki min əsgər və vəzirləri ilə birlikdə çadırlarını qurublarmış. Lakin buraya gələndə Məkkənin nüfuzlu şəxsləri onları qarşılamamış, hörmət-izzətlərini bildirməyiblərmiş. Bunu görən məlik Tübbanın əmirləri araya nifaq salmış, məliyi qəzəbə gətirib Məkkənin nüfuzlu şəxslərinin var-dövlətini yağmalamağı, hətta bəzilərinin boynunu vurdurmağı düşünməsinə səbəb olublarmış. Müdrik vəzirləri isə bu fikrə etiraz ediblərmiş. Onlardan biri – Samul Axır Zaman Nəbisinin Məkkədə dünyaya gəlməsinin yaxınlaşdığını, Məkkə əhalisi məhv edilərsə, çox güman, onun əcdadlarının da bundan zərər görəcəyini, yaxud dünyaya gəlməyinin gecikə biləcəyini, bunun isə Allahın qəzəbinə tuş gələcəyini deyibmiş. Məlik həmin gecə məkkəlilərə qəzəbli halda yatağa giribmiş. Lakin yuxuda ona bir xəstəlik gəlib bədəni şişibmiş. Həkimləri dərdinə heç cür əlac tapmayıb-

larmış. Ertəsi gün və ondan sonrakı gün get-gedə şişibmiş. Nəhayət, dili ağzını tutub nəfəs almasını çətinləşdiribmiş. Bu zaman bir kahin ürəyindəki fitnə-fəsada görə bu vəziy yətə düşdüyünü, müdrik Axır Zaman Nəbisinin haqq olduğunu, daşıdığı mənfur fikirlərdən əl çəkərsə, sağala biləcəyini deyibmiş. Məlik Tübba kahini dinləyib yavaş-yavaş qəzəbinə qalib gəlib və mənfur niyyətlərindən əl çəkib tövbə edibmiş.

Bu minvalla Məkkədən çıxıb öz yolu ilə gedəsi olubmuş. Səhranı və qara təpələri aşır. Nəhayət, yolu Yəsrib adlı bir qəsəbəyə düşür. Dağların arasında düzənlik kimi bir ərazidə salınmış bir qəsəbə imiş, xeyli vaxt əvvəldən də xarabazara çevrilibmiş. Münbit torpaqları olsa da, otbitməz, karvankeçməz yerə dönübmüş. Tuğba burada qalmaq belə istəmir. Çünki hər yerdən çox pis iy gəlirmiş. Həkimləri və müdrik vəzirləri pis iyin səbəbini heç cür tapa bilmirlər. Nəhayət, dayanmağa mənzil axtararkən bir məhəlləyə yolları düşür. Burada isə əksinə, burunlarına çox gözəl ətir gəlibmiş. Məlik bunun səbəbini xəbər alanda yenə müdrik Samul Kəbədə dünyaya gələcəyini dediyi peyğəmbərin bir müddət sonra buraya gələcəyindən, burada yaşayacağından, nəhayət, bu gözəl qoxulu yerdə dəfn ediləcəyindən, aldıqları iyin, bəlkə də, ona aid olma ehtimalından söz acır. “*Ol Nəbinin gələcəyi vaxt yaxınlaşmaqdadır”,* – deməyi də unutmur. Bundan sonra Məlik Tübba deyilən yerdə məclis qurdurub ziyafət təşkil edir. Günlərlə yaxınlıqda yaşayan əhaliyə yaxşılıq və yardımlar edərək uzun müddət həmin cənnət qoxulu ravzada qalır. Amma günlər keçib vaxt qısaldıqca əmrinə müntəzir olan alimlər ondan bir şey xahiş edirlər:

“Ey qüdrətli padşah! Sizin əmrinizdə kifayət qədər bilici və təbəə var, bizi burada qoyun və hərəmizə bir hücrə tikdirin. Ümid edirik, o Nəbinin dövrünə qədər sağ qalar və ona qovuşarıq. Ona qovuşa bilsək, sizi də xəbərdar edərik”.

Məlik qırx aliminin hərəsinə bir ev tikdirir və hər birinə bir cariyə bağışlayaraq var-dövlətindən pay ayırır. Daşdan bünövrəsi qoyulmuş daha bir ev isə Nəbi üçün tikdirib belə vəsiyyət edir: “O möhtərəm şəxs Məkkədə peyğəmbər olub bu məmləkətə təşrif buyuranda bu evdə qalsın”.

O vaxtlar yazılar gil lövhələrə yazılır, məktublar belə göndərilirmiş. Məlik Tübba bişmiş gildən bir lövhə hazırlatdırır. Üstünü öz əli ilə yazdıqdan sonra müdrik vəziri Samula vəsiyyət edir: “Şayət yolu gözlənilən o son peyğəmbər mənim vaxtımda gələrsə, çox gözəl; məndən sonra gələrsə, o möhtərəm şəxsin naminə sənə bu məktubu verirəm. Əmanətimi əldən-ələ, atadan-oğula təqdim edərək şəxsən zatın əlinə çatana qədər ötürərsən”.

Sən demə, məlik Tübba məktubda ibrani hərfləri ilə belə yazıbmış: *“Əvvəl və axır, hər şey, hər əmr və təqdir Allah Təalanındır”.*

Səhər tezdən məlik ordusunu götürüb əvvəl Qüdsə gedir, sonra vətəni Yəmənə qayıdır. Samul məlikin məktubunu bir sandıqçaya qoyub möhürləyir. Əmanət sahibinə yetişib açılana qədər...

Vaxt keçir, doğulanlar ölürlər. Hazrəc qəbiləsindən olan Samul Mübarək Peyğəmbərə qovuşa bilmir. Az keçir, çox keçir, Samulun yeddi və ya on iki nəsil sonrakı nəvəsi Zeyd bu evdə yaşayarkən adı gözəl Məhəmməd doğulur. Ol Axır Zaman Nəbisinin mübarək doğuluşundan iyirmi